**UOT 78.03**
**https://doi.org/10.59849/2311-8482.2024.1.214**

**ŞƏBNƏM ŞİRİNOVA***

# UŞAQ ÖZFƏALİYYƏT XORUNDA MUSİQİ SAVADI

*Məqalədə yüksək səviyyəli ifaçılığa malik bədii keyfiyyətli uşaq xor kollektivlərinin meydana çıxmasından bəhs olunur.Müəllif xor iştirakçılarında musiqiyə dair bilik vərdişlərini aşılamaq işinə musiqi rəhbərlərinin ciddi fikir vermələrindən danışılır.Musiqi savadı məşğələlərinin təlimi bir sıra çətinliklərlə bağlıdır.Bu çətinliklər məşğələ prosesində bir tərəfdən maraqlı üsul və metodlar axtarışı ilə,digər tərəfdən musiqiyə aid biliklərin təcrübədə xor ifaçılığında tətbiqi ilə əlaqədardir.Müəllif onu da qeyd edir ki,hər bir xor rəhbəri bu təcrübə nümunəsindən öz iş şəritinə uyğun gələn metodları tapıb tətbiq etməlidir.*

***Açar sözlər:*** *Not ,ritm ,musiqi ,temp,səs ,xor ,qamma*

## Giriş

Son vaxtlar xeyli miqdarda yüksək səviyyəli ifaçılığa malik bədii keyfiyyətli uşaq xor kollektivləri meydana çıxmışdır.Heç şübhəsiz ki,onların müvəffəqiyyətlərini təmin edən başlıca cəhətlərdən biri xor iştirakçılarında musiqiyə dair bilik və vərdiş aşılamaq işinə musiqi rəhbərlərinin ciddi fikir vermələridir.Öz təcrübəmizdən və başqa xorların musiqi rəhbərləri ilə söhbətlərdən yəqin etmişik ki,musiqi savadı məşğələlərinin təlimi bir sıra çətinliklərlə bağlıdır.Bu çətinliklər məşğələ prosesində bir tərəfdən maraqlı üsul və metodlar axtarışı ilə,digər tərəfdən musiqiyə aid nəzəri biliklərin təcrübədə -xor ifaçılığında tətbiqi ilə əlaqədardır.

## Əsas təhlil

Sözsüz ki, musiqi savadı məşğələlərinə aid aşağıdakı şərh etdiyimiz forma və üsulları vahid və dəyişilməz qaydalar kimi başa düşmək düzgün olmazdı,əksinə bunlar daim təkmilləşməkdədir. Onu da qeyd etməliyik ki,hər bir xor rəhbəri bu təcrübə nümunəsindən öz iş şəraitinə uyğun gələn metodları tapıb,tətbiq edə bilər.

Uşaqlara musiqi biliyi xor ilə iş prosesində aşılanır, təbii ki,onun hər bir mərhələsində musiqi savadına xüsusi fikir verilir və əlahiddə yer ayrılır.

Musiqi biliyi xor ifaçısına:1) musiqi savadına ayrılmış xüsusi məşğələlərdə, 2) vokal təmrinlərinin məşqi zamanı, 3) yeni əsərin öyrənilməsi prosesində çatdırılır.Bizə elə gəlir ki ,xor ilə işimizin ayrı-ayrı mərhələlərində müvafiq olaraq istifadə etdiyimiz musiqi savadı və digər üsul və metodların təlimi üzərində dayanmaq məqsədə uyğun olar.

Birinci məşğələnin əsas vəzifəsi ilk dəfə not ilə oxumağa başlayan uşaqlara bu işin geniş imkanlara malik olduğunu tezliklə və inandırıcı şəkildə çatdirmaqdır. Buna görə də biz, çalışırıq ki,uşaqlar ikinci və üçüncü məşğələlərdə xor rəhbərinin cüzi köməyi ilə ən sadə melodiyanı not vasitəsilə müstəqil oxumağa nail olsun.

Xor iştirakçılarının diqqətini, hər şeydən əvvəl, do major səs düzümündə pillələrin yüksəkliyə görə fərqini mənimsəməyə yönəldirik.Bu məqsədlə müvəqqəti olaraq not yazısından imtina edirik,çünki onun necə çətin başa gəldiyini təcrübədən bilirik.

Hər bir pillənin səslənməsini uşaqlar müstəqil olaraq tapırlar. Bütün pillələr sərbəst şəkildə oxunduqdan sonra mahnının ritminə uyğun işarə ilə onları “əlin hərəkəti”lə oxumağı təklif edirik.

Uşaqların mahnını tanıması gözlənilməz olsa da, onlar belə bir əsas cəhəti dərk edirlər ki,səsin yüksəkliyini düzgün tapmaqla istədikləri melodiyanı oxuya bilərlər.Sonra isə biz pillələr arasında daha çox ötürmələr olan digər bir mahnını təhlil etməyə başlayırıq.

Uşaqlar müstəqil şəkildə bir neçə mahnını oxuduqdan sonra musiqi savadı məşğələləri intensiv və canlı surətdə gedir,bu məşğələyə maraq müqayisəyə gəlməz dərəcədə artır.

Səsin uzunluğu anlayışını uşaqlara başa salmaq üçün royalda bir səsi gah qısa,gah da davamlı çalırıq.Soruşuruq:birinci səs ikinci səsdən nə ilə fərqlənir? Tez cavab alırıq:birinci səs qısa,ikinci səs uzundur.Deməli, səslər nəinki yüksəkliyə görə,həm də davamlı sədasına görə fərqlənirlər.Lakin

səsin uzunluğunu ,onların bir-birinə nisbətini və yazılışını izah etməzdən əvvəl,uşaqlara metrik hissəni eşitməklə təyin etməyi öyrədirik. Fortepiano pyesini çalıb,ritmik və metrik şəkillərini bilərəkdən,şüurlu surətdə dəyişdiririk və deyirik ki,tapın görək səslənən hansı əsərdir?Çalınan əsəri adətən heç kəs düzgün təyin edə bilmir. Belə olduqda, pyesi ikinci dəfə ritmik cəhətdən düzgün çalırıq.Uşaqlar dərhal başa düşürlər ki,"nizamlı addımları",vurğusu və ölçüsü aydın olmadığı üçün marşı birinci dəfə tanıya bilməmişlər.Hər bir musiqi əsərinin özünəməxsus ölçüsü vardır.Əgər bu ölçü pozularsa,həmin musiqini təyin etmək mümkün olmaz.Metrik hissə kimi növbələşən bərabərölçülü vurğünü müəyyən edib,onu uyğun tanış mahnıya tətbiq edirik.

Hər bir notun səslənməsini diqqətlə dinləyir və əl ilə metrik hissələrin vəznini saxlayırıq,aydın olur ki,hər dörd səsin birrincisi bu hissəyə düşür,beşinci səsdə isə dörd səsin birincisi bu hissəyə düşür,beşinci səsdə isə dörd belə hissə olur.,bu üsulla təhlil edib,aydınlaşdırırıq ki,hissələrdə səslər müxtəlif sayda olur:bir,iki;və yaxud bir hissəyə iki səs düşür.

Sonra səslərə uzunluğunu görə ad veririk:uzunluğu bir hissəyə uyğun gələnə-çərək not,iki hissəyə uyğun gələnə -yarım not,dörd hissəyə uyğun gələnə bütöv not deyilir,iki notu bir hissəyə bərabər olan isə səkkizlik not adlanır.

Səsin uzunluğunu mükəmməl mənimsətmək məqsədilə bir çox vokal təmrinləri ifa edirik. Bunlar yenə də çərək not,yarım not,bütöv not və səkkizlik notla oxunan səs düzümündən ibarət olur. Təmrinlər mürəkkəbləşdirilir:müxtəlif uzunluğa malik səsdüzümü sistemsiz ,ardıcıllığı gözləmədən oxunur.Bir kiçik melodiya ifa edib,uşaqlara müstəqil olaraq ritmini təhlil etməyi tapşırırıq.Bundan sonra ölçülərin izahını keçirik.Royalda vals çalaraq,metrik hissələrini müəyyənləşdirib,soruşuruq ki,güclü səslənməsinə görə hissələr arasında fərq varmı?Adətən,uşaqlar iki suala birdən cavab verirlər:valsda həmişə üç hissə eşidilir,birinci hissə sonrakı iki hissədən güclü səslənir.Mahnıları oxuyaraq,onlardakı güclü və zəif hissələri tapırıq və onların növbələşməsini ardıcıllıqla qeyd edirik:göstəririk ki,güclü hissə həmişə" bir"sayına düşür,zəif hissələr isə sonrakılara.Uşaqlara bu mahnıların ölçülərini təyin etmək bacarığı aşılayırıq.

Uşaqlarda məqam hissiyatının tərbiyəsinə və inkişafına daha çox diqqət yetiririk.Məqam anlayışını izah etməzdən əvvəl ,uşaqların sabit və qeyri sabit səsləri bir-birindən seçmə bacarığına nail oluruq.Onlar bu vərdişə olduqca tez yiyələnir,sabit və qeyri sabit səsləri səsdüzümündə sərbəst qurub oxuyurlar.

Şən mahnının bir çox hallarda major ladında qəmli mahnının minorda yazıldığını aydınlaşdırarkən,uşaqlara göstəririk ki,musiqinin xarakteri nəinki laddan,habelə onun tempindən,ritmindən,melodiyanın hərəkət xüsusiyyətindən asılıdır.

Birinci mahnının səsdüzümünü major ladının səsdüzümü və ya major ladının qamması kimi şərtləndiririk.İkinci mahnının səsdüzümünü isə minor ladının səsdüzümü və ya minor ladının qamması hesab edirik.Daha sonra müəyyən etmək vacibdir ki, major və minor qammalarını istənilən səsdən oxumaq mümkündür,lakin bir şərtlə gərək səslər arasındakı məsafəyə mütləq düzgün riayət olunsun.

Vokal təmrinlərinin məşqi zamanı box vaxt musiqi savadı məsələləri ikinci dərəcəli əhəmiyyət kəsb edir,lakin müstəsna hallarda əsas amilə çevrilir.Adətən oxumaq prosesində musiqi savadına dair yeni məlumatlar verilmir,xüsusi məşğələlərdə əvvəllər mənimsədilmiş biliklər möhkəmləndirilir. Məsələn, biz məşq zamanı ton və yarımtonların möhkəmləndirilməsinə və dəqiq səslənməsinə böyük diqqət yetiririk.Uşaqların səslər arasındakı fərqi ayırmaq bacarığı təmrinlərdəki emosional,ifadəli anların yaxşı duyulması işini xeyli asanlaşdırır.Təmrinlərdə bu fərqi dinamik xüsusiyyətlərlə və səslərin çaları ilə nəzərə çarpdırırıq.Yarımtonları piano və pianissimo,tonları isə mezzo forte və forte oxumağı tövsiyə edirik.Major üçsəslisində tersiyanın dəqiq səslənməsi üçün vokal təmrinlərindən istifadə olunması zəruridir.Bu tersiyanı bir qayda olaraq təmrinin sonunda yerləşdiririk,çünkı məhz belə olduqda,onu oxumaq xüsusilə çətin olur.

Çoxsəsli vərdişlərinin aşılanması üçün musiqi savadı çox mühüm əhəmiyyətə malikdir.Kanon üslubunda ifa,çalğı alətinin müşayiəti olmadan notların adını deməklə akkordların ardıcıl oxunması böyük səmərə verir;belə ki,hər bir səs qrupu öz oxuduğunu nəinki eşitmək imkanına malik olur,həm də necə deyərlər,ifa etdiyini görür.

Musiqi savadına aid yeni zəruri məlumatları möhkəmləndirmək məqsədilə bəzən ifa zamanı təmrinlər keçilir;ələlxüsus,əgər öyrədilən əsərdə hər hansı akkordların ardıcıllığı alınmırsa,ladın

yaxşı səslənməyən pilləsi varsa və s.Bunun üçün vokal təmrinlərinin məşqinə öyrənilən əsərdən bir parça daxil edilir və ya xüsusi təmrin tərtib olunur.Həmin təmrinin ifasına başlamazdan əvvəl, onu incəliyinə qədər təhlil edirik.

Yeni əsərin öyrədilməsi-musiqi savadından mənimsədilmiş bütün biliklərə imtahan deməkdir. Eşitmə hissiyatı,nəzəri bilik təsirli emosional ifa ilə birləşərək bütöblükdə vahid anambllıq yararadır.

Əgər öyrədilən əsər musiqi savadı baxımından uşaqlara yeni bir şey vermirsə və ya onlar üçün anlaşılmaz görünürsə,onda əvvəlcədən təhlil olunmadan solfecio edilir.Əsər müstəqil təhlil olunmursa,öyrədilməzdən əvvəl uşaqları bilavasitə onda rast gəldiyimiz yeni cəhətlərlə tanış etməyi lazım bilirik.Ola bilər ki bu anlayışlar lad,ritmik,metrik,interval və ya harmonik xüsusiyyətlərlə əlaqədar olsun.

Hər hansı bir əsərin təhlilinə mütləq,qammanın ifasından,sabit və qeyri-sabit səslərin,həmçinin bəzi pillələrdə təsadüf olunan alterasiya işarələrinin izahından başlayırıq.İntonasiya cəhətdən çətin olan olan melodiyanı lövhədə yazıb,təhlilini veririk.əgər ritmik şəkli mürəkkəbdirsə,onda əvvəlcədən notu ritmi ilə üzündən oxuyuruq.

Demək olar ki, bütün əsərlərin partiyasını ayrı-ayrılıqda öyrədirik.Melodiya asanlıqla solfecio edilən kimi xor partiyalarını birləşdiririk.Daha sonra akkordların səslənməsini,unisonları,ritmik fərqi və s.cəhətləri diqqətlə dinləyib şüurlu surətdə başa düşmək imkanı əldə etmək üçün uşaqlar həmin əsəri bir müddət not üzündən oxuyurlar.Əsəri mətn ilə öyrənərkən bəzən not vasitəsilə ifaya ona görə qayıdırıq ki,xor iştirakçılarının diqqətini intonasiya,ritmik və ya harmonik çətinliklərin aradan qaldırılmasına yönəldək.

Not üzündən o əsərləri oxumaq daha yaxşı nəticə verir ki,onları uşaqlar müəllimin cüzi köməyilə müəyyən dərəcədə təhlil edə bilir.Lakin bu o demək deyildir ki,qismən mürəkkəb xor əsərlərini eşitmə vasitəsilə öyrətməyi lazım bilirik.Bizcə dinləmək vasitəsilə yalnız elə əsərləri uşaqlara öyrətmək olar ki,onlardakı çətin elementlərin başqa cür çatdırılması qeyri-mümkündür. Bununla yanaşı qeyd edək ki,uşaqlara nisbətən anlaşıqlı əsərləri tövsiyə etmək lazımdır.

**Nəticə**

Nəticə etibarı ilə qeyd etməyi vacib bilirik ki,musiqi savadı üzrə xüsusi məşğələləri adətən biz bir il ərzində aparırıq,bu barədə bilik və məlumatı xorun üzvlərinə sonralar vokal təmrinlərinin ifası zamanı və yeni əsərlərin öyrədilməsi prosesində çatdırırıq.

## ƏDƏBİYYAT

1.Ü.Hacıbəyov. Azərbaycan musiqi tərəqqisi.Əsərləri II- cild.Bakı,1965
2.”Azərbaycan xalq musiqiçiləri”-Firuqin Şuşinski,Bakı,1965
3.Səfərova Ə.Azərbaycan musiqi elmi.Bakı,1998
4.İsmayılov S.M.”Azərbaycan xalq Musiqisinin əsasları.”Bakı,1960
5.Azərbaycan xalq rəqsləri.Bakı, 1951

***Naxçıvan Dövlət Universitetinin baş müəllimi***

**Shabnam Shirinova**

## A CHILD LEARNS MUSIC IN A SELF-ACTIVITY CHOIR

The article talks about the emergence of artistic quality children’s choirs with high-level performance. The author talks about the serious consideration of music directors to inculcate musical knowledge habits in choir participants. The training of music literacy classes is associated with a number of difficulties. on the other hand, it is related to the application of musical knowledge in practice in choir performance. The author also notes that each choir leader should find and apply the methods that are suitable for his work from this sample of practice.

**Keywords:** *Note, rhythm, music, tempo, voice, chorus, scale*

**Шабнам Ширинова**

## РЕБЕНОК ИЗУЧАЕТ МУЗЫКУ В ХОРЕ САМОДЕЙСТВИЯ

В статье говорится о появлении художественных детских хоров с высоким исполнительским уровнем. Автор говорит о серьезном подходе музыкальных руководителей к привитию музыкальных знаний участникам хора. Обучение на занятиях по музыкальной грамоте связано с рядом трудностей. с другой стороны, это связано с применением музыкальных знаний на практике в хоровом исполнительстве. Автор также отмечает, что каждый руководитель хора должен находить и применять из данного образца практики те методы, которые подходят для его работы.

**Ключевые слова:** *Нота, ритм, музыка, темп, голос, припев, гамма.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmovas tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 19.01.2024**
**Son daxilolma tarixi:11.03.2024**